# İNSANLIĞIN POEZİYASI

### *Görünməzləri görən insan,*
***yaxud Maşallah Məftunun Şəddad hekayəti***

Şəddad müəllimi sevən şairlərdə çoxdu, onu tərənnüm edən söz adamlarıda çoxdu. Onlardan biri də sözü də özü kimi həssas duyğusal dostum həyatda sədaqəti, saflığı özünə yaşam ölçüsü bilən şair Maşallah Məftundur. Onun Şəddad Cəfərovla ədəbi əlaqələrinin, yaradıcılıq münasibətlərinin məziyyətləri haqqında danışmaqdan əvvəl, özü haqqında bir qədər məlumat vermək istədim. Əlbəttə, söz sahibi haqqında hər hansı bir məlumat gələcək nəsillərə ünvanlanmış məktubdur. O, Yardımlı rayonunun Horavar kəndində dünyaya gəlib. Gözünü açıb özünü tanıyandan sözün arxasınca qaçıb. Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirib. Şair tərcüməçi kimi 80-ci illərdə Moskva ədəbi mühitində kifayət qədər tanınırdı. Yazıları ən nüfuzlu dərgilərdə çap olunurdu. Əvvəllər də yazmışam; Maşallah Məftunun təbiətində bir macəraçılıq var. Bu macəraçılıq onun həyat yolunu birdən-birə dəyişdi. B.M.Şapoşnikov adına hərbi akademiyaya gedib çıxdı. Və bu zaman artıq Sovet imperiyası laxlamışdı. Bu yerdə onun öz sözünü odlu kimi demək daha yaxşı olar: "Yaxşı mən ali hərbi akademiya bitirmişəm. Bəs bu gündə də Vətənə gərək olmayıb haçan hərbi ixtisasımla bağlı bir işə yarayacağam?" beləliklə Qarabağ savaşına başladı. 93-cü ildən başlayaraq düz 17-il hərbi formanı əynindən çıxarmadı. Yenə onun öz sözü daha çox işə yarayır: "Daha gördülər ki, başımda bir qara tük qalmadı saçım ağappaq olmuşdu. Hər ölümlə ruhumda bir yara açılırdı. Bu yara məni zaman-zaman istirab cəngində sıxırdı... axır ki, ədəbi mühitə qayıtdım." Maşallah Məftunun əsərləri rus, alman, bolqar, monqol, ukrain, hind, özbək, ləzgi, tuva, budi, çeçen... dillərinə tərcümə olunub.

Bəlkə də, Maşallah Məftunun həyat epizodlarına bir qədər geniş yer verməyim mətin içində mövzudan kənara çıxmaq kimi təsir bağışlayar. Ancaq mən istədim ki, həyat sevdalısı olan bir şairlə, həyatı ağılla yaşamağın yolunu dəyərini bilən müdrik bir insanın münasibətlərinə hər kəsin öz aləmindən işıq düşsün.

Şübhəsiz, Şəddad Cəfərov heç də Maşallah Məftunu digər söz sənət sahiblərindən ayırmayıb. Şəddadın zəngin aləmindən Maşallah Məftuna da elə səmimi dostluq payı düşüb.

Söz ürəkdən gələndə, könül duyğularını əks etdirəndə, istər-istəməz oxucunun da varlığına asanlıqla yol tapır. Və bu zaman biz tərənnüm olunan obrazı şeirin səmimiyyətlə süslənmiş ruhunun təqdim elədiyi kimi qavrayırıq. Şeir obrazı həyatda olduğundan daha üstün göstərir. İstər-istəməz hər misranın arxasınca obrazın işıqlı siması bizə təlqin eləyir ki, həyatı sevin. Çünki həyatda yaxşı insanlar az deyil. Maşallah Məftunun Şəddad Cəfərovun təbiətinə işıq tutan şeirinin bizə təlqin olunan mahiyyəti də elə bundan ibarətdir.

Şeir müəllifin nə qədər istedadının göstəricisidirsə, bir o qədər də səmimiyyətinin ifadəsidir. Hər hansı bir poetik nümunədə obrazların bizi cəlb etməsi könlümüzə xoş ovqat bəxş edir. Yaşarı duyğularla xəyallarımız qanadlanır... səmimi ifadə olunmuş duyğular da bizi insanlıq aləminə daha çox bağlayır. Bütün gücümüzlə insanı mənnən qoruyan mühitin içərisində hiss edirik özümüzü.

Azərbaycan şairlərinin qəlbində sakin olan ədəbi qəhrəman kimi Şəddad Cəfərovu yalnız kaygüzarlığına, xeyirxahlığına görə deyil, onu həm də mənən zəngin bir insan kimi sevdiklərinə görə tərənnüm ediblər. Görkəmli şairlərin, böyük söz adamlarının, hətta sıradan olan qələm sahiblərinin Şəddad Cəfərovu tərənnüm etmələri əslində təqdir olunan bir nəfərlə bağlı deyil, bütün insanlarla, bir sözlə, insanlıq aləmi ilə bağlıdır. Yəni Şəddad Cəfərov haqqında yazmaq həyatı yaşarı eləyən uca, ali keyfiyyət sahibi insanlardan yazmaq anlamına gəlir. Şübhəsiz, Maşallah Məftun da Şəddad Cəfərovun cazibəli mühitində öz yerini görə bilib və ona mənəvi mühitinin əks sədası olan şeir də həsr edib. Maraqlıdır ki, Maşallah Məftun "Şəddad müəllim" adlandırdığı şeirinə "Onun cəddi ağırdır..." epiqrafını verib. "Cədd" sözü bir qədər dini anlamda işlənsə də, soy, kök, ulu baba anlamına daha çox uyğun gəlir. Yaxşı adamların, xeyirxahların ulularının ruhu onları qoruyur. İndi də dünyanın bir çox xalqları hesab edirlər ki, onları ulularının ruhları qoruyur. Və dara düşəndə öz yaxınlarının ruhlarını çağırırlar.

Maşallah Məftun sanki həyəcanını boğaraq emosiyadan kənar bir duyğu ilə ustadla söhbət edirmiş kimi şeirinin misralarını dilə gətirir.

Deyirlər çox olmusan,  
Dünyanın dolanbac yollarında.  
Çox oturmusan cavanla, qocayla,  
Müsafirlərlə, müqəssirlərə,  
Münəccimlərlə, falçılarla,  
Qırçılarla, nalçılarla,  
Həsənlə, kərpickəsənlə,  
Ancaq bizdə gördüyünü  
Heç yerdə görməmisən...  
Gördükərinə ürəkdən  
gülməmisən.

Sözünün, sənətinin ucalığında olan ədəbi qəhrəmanı şair həm də insanlığın ucalığında görür. Onun təqdimindən belə başa düşürük ki, ustad ömür boyu yollarda olub. Dünyanın ən müxtəlif təbiətli insanları ilə görüşdüyü kimi, həm də bu insanların məskun olduğu yerlərin təbiətini də görür. Başqa sözlə onun hər hansı bir adi və ya qeyri adi... nəilə təəcübləndirmək olmaz. Çünki böyük insanlıq mərtəbəsinə qalxanlar həyatı həmin ucalıqdan müşahidə edirlər.

Şair insanın həm də yaxşı cəhətlərinə görə döyülməyinin qeyri-adiliyini o qədər adi və səmimiyyətlə verə bilir ki, biz özümüzü də hadisənin mərkəzində görürük:

Asiyanın günbatanında,  
Afrikanın cəngəlliklərində,  
-Səni sevərdilərmi  
Biz sevən kimi?!  
-Səni döyərdilərmi?  
Biz döyən kimi?!

Həqiqətən də bəlkə də dünyanın heç yerində bizdə olduğu qədər ənamla, edam bir-birinə yaxın deyil. Bu gün ənam verdiyimizi, sabah asanlıqla edam edə bilirik. Və belə hal nə asiyanın günbatanında var, nə Afrikanın cəngəlliklərində var. bəli, heç yerdə bir kimsə bizim kimi sevə bilməz. Və heç kimsədə bizim kimi sevdiyini divana çəkməz. Yəqin ki, Maşallah Məftun Şəddad Cəfərovun həyat yoluna yaxşı bələddir. Yəqin xəbəri olub ki, Şəddad Cəfərova iş vermək adı ilə Ulyanovskidən gətiriblər, amma aylarla işsiz qoyublar. Elə həqiqətən Şəddad Cəfərov dumanlı niyyətlərin qurbanı idi. Və bunu da Maşallah Məftun çox sərrast ifadə edib:

Buz baltalar qurbanı,  
Kor ağılın hədəfi,  
öz bağının yiyəsi,  
söz mülkünün tiyəsi.

Buz balta nədir?.. bu o baltadır ki, yalnız soyuq baxışları, buz biganəliyi ilə kəsib doğrayır. Onun qəddarlıqla kəsib doğramağından asanlıqla can qurtarmaq mümkün deyil. Ancaq, Maşallah Məftunun yazdığı kimi Şəddad Cəfərov bu baltanın hədəfi idi. Şair doğru deyir, bu baltanın bir adı da paxıllıq xisləti ilə itilənmiş kor ağıldır.

Şeirin ədəbi qəhrəmanı müdrik insandır. Əslində kor ağılları da qəddarlıqla hərəkətə gətirən onun gözü toxluğu, müdrikliyidir. Təbiətinin insanlığın ən ali keyfiyyətləri ilə süslənməsidir. Şair Maşallah Məftunun yazdığı kimi nadanlara müdriklik, ağıl, təmkin, gözütoxluq gərək deyil:

Görünməzləri görən insan,  
-Sənin ağlının həddi  
çaşdırdı çoxlarını,  
Fəhminin cəddi,  
ağlatdı çoxlarını...  
-Sənin fikir bağına  
şübhəylə baxanlar oldu,  
bir az da ağlından  
qorxanlar oldu.  
Hissinə borclu olanlar  
nadanlar, ay nadanlar...

İnsanın çox qəribə təbiəti var, heç bir mənəvi dəyərə sığmasa da, ağlı az olanı lağa qoymaq, rişxənd etmək xisləti var. Amma o xisləti də var ki, ağılı dörd bir yana işıq salanı da görmək istəmir. Ağıl sarıdan dünyanı bəzəyən insanı məhv etmək, onu sındırmaq, onu bir tikə çörəyə möhtac qoymaq... bütün bunlar insanın təbiətinə xas keyfiyyətdir. M.Məftun da elə sözünün canını məhz bu məqama gətirir. Şəddad müəllimin başına gələn hadisələrin çoxunun mayasında, məğzində onun həyata təmkinli münasibəti, hadisələrə müdrik yanaşması dururdu. Şübhəsiz, bütün bunları da şair yaxşı görür, yaxşı dərk edirdi. Şair şeirinin sonluğunda ustadı əzablar dənizinin üzgüçüsü kimi görür. Deməк, həyat ümmanında üzməyə qadir olanlar onun belə burulğanlarında bata bilməz:

Əzablar dənizində  
çox üzdün ustad,  
Qaranlıqlar səltənətində  
Çox dözdün ustad.  
Yaşadın ki, yaşadın...  
Hələ də yaşayırsan...  
Hələ də yaşayırsan...

Şair şeirinin sonunda "Yaşadın ki, yaşadım", - deyir. Və bu da poetik düşüncələrin məntiqi yekunu kimi səslənir. Mənəvi varlığının saflığına güvənənlər yaşamaq haqqını belə qazanırlar; təbiətlərinin saflığını qorumaqla.

### Həşim Qərvəndinin gördüyü Şəddad

90-cı illərin axırlarında 2000-ci illərin əvvəllərində - o vaxt "Vahid bağı" adlanan məkanda bir poeziya ocağı vardı. 20-ci əsrin klassik ənənələr üstündə köklənmiş, qəzəlxan şairi Həkim Qəni Vahid poeziya evi adlanan həmin məkanda, ədəbi məclis aparardı. Qəzəl üstə köklənmiş şairlər buraya toplanar, Həkim Qəninin Füzuli incələmələrini dinləyər, klassik üslubda yazdıqları şeirlərini oxuyardılar. Nisbətən ahıl yaşına çatmış Həşim Qərvəndlini də mən həmin məclisdə görmüşdüm. O, endokirinoloq həkim idi. Hətta, M.Mirqasımov adına respublika mərkəzi xəstəxanasının nəzdində ilk dəfə endokirinoloji mərkəz də yaratmışdı. əslən Qarabağlı idi. Ağdamın Qərvənd kəndindən olduğu üçün, özünə də Qərvəndi ədəbi təxəllüsü götürmüşdü.

Həşim Qərvəndi Şəddad Cəfərovla uzun illər dostluq etmiş, onu yaxından tanımışdır. Özü təbli adam olduğundan yazdığı şeirlərini bir yerə toplayıb kitab da çap elətdirmişdi. Deməк, şair Həşim Qərvəndlinin Şəddad Cəfərova bir neçə şeir həsr etməsini də bu yöndən təbii qəbul etməliyik. Burada yazıçı-publisist Sevda Əlibəylinin kitabında dərc olunmuş Həşim Qərvəndinin "Gördüm" rədifli şeirinə doxsanıncı illərin əvvəllərində (1992) Şəddad obrazına öz baxışının ifadəsi kimi nəzər yetirməyi mənəvi borcumuz bildik: "Gördüm" şeiri klassik qoşma ənənəsi üzərində yazılıb. Bəri başdan deyim ki, şeir həqiqətən ilhamla yazılıb, yaxşı insanların tərənnümünü özünə borc bilən müəllifin sevgisi ilə yazılıb. Şeirin yazıldığı zamanda Şəddad Cəfərovun 42 yaşı vardı. Təbii ki, Həşim Qərvəndi onu cavan görür... və cavanı yüksək hörmət mərtəbəsində görür. Bu da onun söz, ilham çeşməsinə yol açır:

Ömrün çiçəkli bahar çağında  
Dost məclisində bir cavan gördüm.  
Xoşsifət, şirindil, incə təbiət,  
Oturdu mənimlə yanbayan, gördüm.

Elə ilk görüşdən könlümə yatdı,  
Gördüm söz-söhbəti mənə doğmadı,  
Dostluğu qəlbimdə bitdi, kök atdı,  
Mən onu dostluqda mehriban gördüm.

Müəllifin qeyd etdiyi kimi Şəddad müəllim həqiqətən ilk dəfə tanış olduğu hər kəsdə xoş və dərin bir təəssürat buraxır. Onu birinci dəfə görən hər kəs heç vaxt unutmur. Bu şeirdə də Şəddad müəllimin xoşsifət, şirindil olmağı, incə təbiəti, ən başlıcası sadəliyi, insanlara doğmalığı və bu cəhətlərinə görə onunla dost olmaq istəyinin yaranması... bütün bu cəhətlər şairi ədəbi qəhrəmana ömürlük bağlayır, onların arasında dostluq belə başlayır.

Müəllif müşahidə edir ki, Şəddad Cəfərov cavan olsa da, təmkinlidir, ağsaqqaldır və ən başlıcası hörmət, izzət sahibidir. Şeirin qalan bəndlərində bir növ sonrakı zaman da öz əksini tapır. Bu zaman isə onların arasında olan dostluğun görünən tərəfləridir.

Qönçə təbəssümü, xoş hərəkəti,  
Seyr etdim təmkinli sözü-söhbəti.  
Ürəyimə düşən o məhəbbəti  
O vaxtdan yadigar bir nişan gördüm.

Hər dəfə görəndə könlüm olur şad,  
Bir adı Hatəmdir, bir adı Şəddad  
Qərvəndi deyir ki, yaşasın ustad,  
İnsanlar incisi, bir insan gördüm.

Həşim Qərvəndi göründüyü kimi bu şeirin son bəndində Hatəm adını da çəkir. Hatəm öz səxavəti ilə məşhur olan obrazdır. Hatəmi Tai adı ilə ərəb dünyasında şair kimi də məşhur olub. Ancaq onun adını yaşadan səxavətidir. Xeyirxahlığıdır. Həşim Qərvəndi Şəddad Cəfərovu məhz xeyirxahlığına görə Hatəmi Tai ilə müqayisə edir.

Bu şeir 13.05.1992-ci ildə yazılıb. Həmin dövr çox qarışıq idi. Siyasi kataklizmlər insanların mənəvi mühitində uçurum yaratmışdı. Bir növ yaxşı ilə pisin qarışdığı xaotik zaman idi. Belə qarışıq zamanlarda insanların bir-birini aydın görə bilməsi üçün mənəvi saflıq əsas şərtlərdən idi. Bu mənada Həşim Qərvəndinin gördüyü Şəddad hər cür sözə və tərənnümə layiq olduğu üçün yaddaşlardan silinmir.

***03.12.2019***